AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

TƏDQİQATLAR DEPARTAMENTİ

Sahələrarası maliyyə axınlarının təhlilinə dair HESABAT

2026

№ 16
2025 IV rüb

Mündəricat

Xülasə 2
İqtisadi fəaliyyət sahələri üzrə maliyyə axınları 5
Ticari və qeyri-ticari sektorlarda maliyyə axınları 7
Neft və qeyri-neft sektorları üzrə maliyyə axınları 8
Maliyyə axınlarının sahəvi istiqaməti 8
Metodoloji qeydlər 10
Əlavələr 12

Şəkil və cədvəllərin siyahısı

Şəkil 1. Qeyri-neft-qaz ÜDM və iqtisadi aktivlik indeksinin rüblük artım tempi 2
Şəkil 2. İllər üzrə gündəlik maliyyə axınları 3
Şəkil 3. Ümumi iqtisadi aktivlik indeksi 4
Şəkil 4. ÜDM-in başlıca xərc komponentləri üzrə aktivlik indeksi 4
Şəkil 5. Maliyyə axınlarında sektorların xüsusi çəkisi 5
Şəkil 6. İqtisadi fəaliyyət sahələri üzrə maliyyə axınlarında dəyişmə, benefisiarlar üzrə 7
Şəkil 7. Ticari və qeyri-ticari sektorlar üzrə iqtisadi aktivlik indeksi 7
Şəkil 8. Maliyyə axınlarında ticari və qeyri-ticari sektorların payı 8
Şəkil 9. Neft və qeyri-neft sektorları üzrə iqtisadi aktivlik indeksi 8
Şəkil 10. İqtisadi fəaliyyət sahələri arasında maliyyə axınlarının istiqaməti 9
Şəkil 11. Maliyyə axınlarının həftənin günləri üzrə paylanması 10
Şəkil 12. Maliyyə axınlarının ilin ayları üzrə paylanması 11

Cədvəl 1. İqtisadi fəaliyyət sahələri üzrə ödəniş daxilolmaları 18

Xülasə

2025-ci ildə qlobal iqtisadi mühit əsasən geosiyasi qeyri-müəyyənliklərin davam etməsi, maliyyə bazarlarında volatilliyin nisbətən yüksək səviyyədə qalması və pul-kredit siyasətinin tədricən yumşaldılması meylləri ilə xarakterizə olunmuşdur. İnkişaf etmiş ölkələrdə inflyasiya təzyiqlərinin azalması fonunda mərkəzi banklar əsasən monetar siyasətdə yumşalma meyilli olmuşdur. Eyni zamanda, qlobal ticarətdə artım tempinin zəif qalması, enerji və xammal bazarlarında qiymət dəyişkənliyi, habelə rəqəmsallaşma və yaşıl iqtisadiyyata keçidlə bağlı gedən proseslər başlıca amillər olmuşdur. Bu qlobal makroiqtisadi şərait fonunda iqtisadi fəaliyyət sahələri üzrə aktivlik də fərqli istiqamətlərdə dəyişmiş və həyata keçirilmiş ödəniş əməliyyatlarının strukturu və həcmi ölkə daxilində sahələrarası maliyyə axınlarının formalaşmasa təsir etmişdir.

Azərbaycanda Real vaxt rejimində hesablaşmalar sistemi (AZIPS) və Xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi (XÖHKS) üzərindən həyata keçirilən ödəniş əməliyyatlarına əsaslanan sahələrarası maliyyə axınları üzrə günlük verilənlər bazası bütövlükdə iqtisadiyyatda və ayrı-ayrı iqtisadi fəaliyyət sahələrində fəallığın izlənməsi baxımından mühüm informasiya mənbəyi kimi çıxış edir. Həmçinin sahələrarası maliyyə axınları ümumi daxili məhsulun (ÜDM-in) naukastinq və proqnozlaşdırılmasında faydalıdır.

Sahələrarası maliyyə axınlarının təhlilinə dair hesabat dövr ərzində bütövlükdə iqtisadiyyatda və ayrı-ayrı iqtisadi fəaliyyət sahələrində ödəniş daxilolmalarının təhlilinə həsr olunmuşdur.[1] Hesabat 2018-ci ilin əvvəlindən indiyədək keçən müddəti əhatə edən günlük məlumatlar əsasında hazırlanmış, 2025 və 2024-cü illərin dördüncü rübləri üzrə ödəniş daxilolmaları müqayisəli təhlil edilmişdir.

Qeyri-neft-qaz ÜDM-in yüksək tezlikdə izlənilməsi məqsədilə ödəniş daxilolmaları əsasında iqtisadi aktivlik indeksi hazırlanmış və qeyri-neft-qaz ÜDM-in rüblük artım tempi ilə əlaqəsi Şəkil 1-də göstərilmişdir.[2] 2025-ci ilin ikinci yarımilindən etibarən başlayan azalma trendi ilin sonuna qədər davam etmişdir. Ötən ilin dördüncü rübündə, o cümlədən dekabr ayında azalma tempi müşahidə edilmişdir. Bu dinamika qeyri-neft-qaz ÜDM-in rüblük artım tempində də qeydə alınmışdır.

Şəkil 1. Qeyri-neft-qaz ÜDM və iqtisadi aktivlik indeksinin rüblük artım tempi (%-lə)



[1] Sahələrarası maliyyə axınlarının verilənlər bazası AZIPS və XÖHKS üzərindən daxil olan ödənişlərə dair məlumatlar üzərində qurulmuşdur. Bankdaxili və ölkəxarici ödənişlər və daxilolmalar AZIPS məlumat bazasında əhatə olunmur.

[2] İndeksin hesablanması məqsədilə iqtisadi fəaliyyət sahələri üzrə mövsümi təmizlənmiş ödəniş daxilolmaları "Əsas komponentlərin təhlili" (Principal component analysis) metodu vasitəsilə vahid indeksdə aqreqatlaşdırılmışdır. İndeksin qeyri-neft-qaz ÜDM-in artım tempi ilə korrelyasiyası 45% təşkil etsə də, korrelyasiya əmsalı 2020-ci ilin yanvar ayından etibarən 66%-ə yüksəlir.

2025-cü ilin dördüncü rübündə üçüncü rübə nəzərən aktivlik indeksində azalma müşahidə olunmuşdur. Hesabat dövründə istehlak, investisiya və ixrac komponentləri üzrə aktivlik indeksi həm üçüncü rüb, həm də ötən ilin eyni dövrü ilə müqayisədə artım nümayiş etdirmişdir. Dördüncü rübdə ötən ilin eyni dövrü ilə müqayisədə indeks üzrə çəkili artıma ən çox töhfə verən fəaliyyət sahəsi ticari sektorda *emal sənayesi*, qeyri-ticari sektorda isə *maliyyə və sığorta fəaliyyəti* olmuşdur.

2025-ci ilin noyabr ayında ödəniş daxilolmaları ötən ilin səviyyəsindən aşağıda qərarlaşsa da, dekabr ayından etibarən yuxarı doğru istiqamət almışdır (Şəkil 2). Nəticədə, dekabr ayı ərzində daxilolmalar ötən illərin maksimum səviyyəsini üstələmişdir. Bütövlükdə, 2025-ci ilin dördüncü rübü ərzində maliyyə axınlarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 11.8% və ya 4.3 mlrd. manat artaraq 40.7 mlrd. manat[3] təşkil etmişdir.[4]

Şəkil 2. Gündəlik məlumatlara əsaslanan maliyyə axınları (mln. manat)[5]



2025-ci ildə ümumi illik maliyyə axınlarının həcmi 2024-cü illə müqayisədə 5.5% və ya 6.6 mlrd. manat artaraq 125.6 mlrd. manat təşkil etmişdir. Ümumi artıma ən çox töhfə verən 3 iqtisadi fəaliyyət sahəsi *dövlət idarəetməsi və müdafiə* (2.5 mlrd. manat), *mədənçıxarma sənayesi* (2.1 mlrd. manat) və *emal sənayesi* (1.4 mlrd. manat) olmuşdur. Əsas azaldıcı təsir isə e*lektrik enerjisi, qaz, buxar istehsalı və təchizatı* (-939.7 mln. manat)*, digər sahələrdə xidmətlərin göstərilməsi* (-892.9 mln. manat) *və tikinti* (-789 mln. manat) qruplarından irəli gəlmişdir.

İqtisadi aktivlik indeksi

İqtisadi aktivlik indeksinin hesablanması zamanı milli hesablar sisteminə uyğun olaraq hər bir iqtisadi fəaliyyət sahəsinin ÜDM-dəki çəkisindən istifadə olunmuşdur. Belə ki, ayrı-ayrı fəaliyyət sahələrində mövsümi təmizlənmiş günlük maliyyə axınlarının həcminin faiz dəyişməsi həmin sahənin iqtisadiyyatda xüsusi çəkisinə əsasən vahid indeksdə aqreqatlaşdırılmışdır. Bu

[3] Hesabatda qeyd olunan bütün artım məlumatları cari qiymətlərlə nominal ifadədə verilmişdir.

[4] Hesabatda maliyyə və sığorta sektorunun *mərkəzi bankın fəaliyyəti* və *digər qruplara daxil edilməyən sair maliyyə vasitəçiliyi* sinifləri üzrə əməliyyatlar nəzərə alınmamışdır. Hər iki sinif üzrə qeydə alınan əməliyyatlar əsasən investisiya şirkətlərinin kommersiya bankları üçün Azərbaycan Mərkəzi Bankının not hərracı üzrə sifarişinin icra olunmayan hissəsinin qaytarılması, bankların notlar alması üçün investisiya şirkətlərinə köçürdüyü məbləğlər üzrə əməliyyatlardır. Qeyd edək ki, bu əməliyyatlar volatil olduğu üçün maliyyə sektoru üzrə iqtisadi aktivlik göstəricisini təhrif edir. Əlavə olaraq cari hesabatda iqtisadi aktivliyi əks etdirməyən ödənişlər (hesabın möhkəmləndirilməsi üzrə müəssisə daxili ödənişlər və.s.) hesablamalardan çıxarılmışdır. Bu baxımdan ilk hesabatlarla müqayisədə rəqəmlərdə müəyyən fərqlər yarana bilər.

[5] Qrafik mövsümi təmizlənmiş 21 günlük sürüşkən orta üsulu ilə hesablanmış məlumatlar əsasında hazırlanmışdır. Günlük ödənişlərin hesablanmasında hər bir iqtisadi fəaliyyət sahəsinin ən son dövrə olan ÜDM-dəki çəkisindən istifadə olunmuşdur.

baxımdan ödəniş daxilolmalarının ümumi həcm göstəricisi ilə müqayisədə bu indeks iqtisadi fəallığı daha yaxşı əks etdirməyə imkan verir. İndeksin hesablanmasında 2018-ci ilin 5 aprel tarixi baza dövrü olaraq qəbul edilmişdir (indeks = 100).

2025-ci ilin dördüncü rübünün əvvəllərindən iqtisadi aktivlik indeksində sabitlik müşahidə edilsə də, rübün ortalarından etibarən indeksdə yenidən artım qeydə alınmışdır. İndeks dördüncü rübün sonlarında tarixi maksimum səviyyəsinə çatmışdır (Şəkil 3). İndeksin rübün sonlarına doğru əhəmiyyətli artmasını istehlak və ixrac komponentləri üzrə artım ilə izah etmək olar. Rüb ərzində iqtisadi aktivlik indeksi ötən ilin müvafiq dövrünə nəzərən 10.4% artmışdır.

Şəkil 3. Ümumi iqtisadi aktivlik indeksi[6]



2025-ci ilin dördüncü rübündə ÜDM-in başlıca komponenti dövlət alışları çıxılmaqla digər bütün komponentləri üzrə indeksdə artım qeydə alınmışdır. İnvestisiya üzrə aktivlik indeksi son bir ildə yüksək volatillik nümayiş etdirməyinə baxmayaraq, hesabat dövründə tarixi maksimum səviyyəsinə çatmışdır. İxrac komponenti üzrə aktivlik indeksində rübün başlanğıcında azalma qeydə alınsa da, dövrün sonlarına doğru artım müşahidə edilmişdir (Şəkil 4).[7] Bütövlükdə, dövlət alışları istisna olmaqla digər komponentlər üzrə aktivlik indeksi ötən illərin maksimum səviyyələrindən yuxarıda qərarlaşmışdır.

Şəkil 4. ÜDM-in başlıca xərc komponentləri üzrə aktivlik indeksi



[6] İndeks 60 günlük (iş günü) sürüşkən orta əsasında hesablanmışdır.

[7] ÜDM-in xərc komponentləri üzrə ödəniş daxilolmalarının bölgüsünün aparılması məqsədilə 2016-cı ildə Dövlət Statistika Komitəsi tərəfindən dərc olunmuş Xərclər-buraxılış cədvəlindən istifadə edilmişdir (https://www.stat.gov.az/source/system_nat_accounts/az/2016_3az.xls).





İqtisadi fəaliyyət sahələri üzrə maliyyə axınları[8]

2025-ci ilin dördüncü rübündə ümumi ödəniş daxilolmalarında ən yüksək paya malik iqtisadi fəaliyyət sahələri *dövlət idarəetməsi və müdafiə* (21.6%), *maliyyə və sığorta fəaliyyəti* (14.4%), *ticarət, nəqliyyat vasitələrinin təmiri* (14.4%) və *tikinti* (13.1%) sahələri olmuşdur. (Şəkil 5). Ötən ilin müvafiq dövrünə nəzərən daxilolmalarda artıma ən yüksək töhfə verən iqtisadi fəaliyyət sahələri isə *maliyyə və sığorta fəaliyyəti* (1.32 mlrd. manat artım), *emal sənayesi* (1.12 mlrd. manat artım) və *dövləti darəetməsi və müdafiə* (1.02 mlrd. manat artım) sahələri olmuşdur.

Şəkil 5. Maliyyə axınlarında sektorların xüsusi çəkisi



A - Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, B - Mədənçıxarma sənayesi, C - Emal sənayesi, D - Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, E - Su təchizatı, tullantıların təmizlənməsi və emalı, F - Tikinti, G - Ticarət, nəqliyyat vasitələrinin təmiri, H - Nəqliyyat və anbar təsərrüfatı, I - Turistlərin yerləşdirilməsi və ictimai iaşə, J - İnformasiya və rabitə, K - Maliyyə və sığorta fəaliyyəti, L - Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, M - Peşə, elmi və texniki fəaliyyət, N - İnzibati və yardımçı xidmətlərin göstərilməsi, O - Dövlət idarəetməsi və müdafiə, sosial təminat, P - Təhsil, Q - Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, R - İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, S - Digər sahələrdə xidmətlərin göstərilməsi

[8] İqtisadi fəaliyyət növlərinin təsnifatına (https://www.stat.gov.az/menu/5/source/Iqt_nov_tes.pdf) əsasən qeyd olunur,

Hesabat dövrü ərzində iqtisadi fəaliyyət sahələrində artım və azalma dinamikasına və ümumi ödəniş daxilolmalarına dair məlumatlar Şəkil 6-da, həmçinin Əlavələr bölməsində Cədvəl 1-də göstərilmişdir. Bütövlükdə rüb ərzində maliyyə axınları üzrə ötən ilin eyni dövrünə nəzərən 6 iqtisadi fəaliyyət sahəsində (*tikinti; su təchizatı; informasiya və rabitə; elektrik enerjisi, qaz və buxar istehsalı; digər sahələrdə xidmətlərin göstərilməsi; təhsil*) azalma, qalanlarında isə artım qeydə alınmışdır (Şəkil 6).

2025-ci ilin dördüncü rübündə əsas azalmaya töhfə *tikinti (-390.7 mln. manat), təhsil (-171.1 mln. manat), elektrik enerjisi, qaz və buxar istehsalı (-158 mln. manat)* sahələrində qeydə alınmışdır:

- *Tikinti* sahəsində ümumi ödəniş daxilolmaları *5.3 mlrd. manat* təşkil etmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə *390.7 mln. manat* (-6.8%) azalma müşahidə edilmişdir. Bu azalma əsasən *yolların və küçələrin salınması, dəmir yollarının tikintisi* qrupuna aid olub, həmin istiqamətdə 1.04 mlrd. manat azalma qeydə alınmışdır. Qeyd olunan azalmanın fonunda isə *yaşayış və qeyri-yaşayış binalarının tikintisi* qrupunda 505 mln. manat artım müşahidə edilmişdir.
- Digər əhəmiyyətli azalma 55% və ya 171.1 mln. manat olmaqla *təhsil* sahəsində qeydə alınmışdır. *Bu sahədəki* azalmanın əsas hissəsi *ali təhsil* (170 mln. manat) qrupunun payına düşmüşdür.
- *Elektrik enerjisi, qaz və buxar istehsalı* sahəsində azalma əsasən *qazın istehsalı, qazabənzər yanacağın bölüşdürülməsi* qrupu ilə əlaqədar olmuşdur. Belə ki, bu qrup üzrə ötən ilin eyni dövrü ilə müqayisədə 262 mln. manat azalma qeydə alınmışdır.

İqtisadi fəaliyyət sahələri üzrə ən çox nominal artım *maliyyə və sığorta fəaliyyəti (29.3%); emal sənayəsi (38.1%); dövlət idarəetməsi və müdafiə* (13.2%) və *mədənçıxarma sənayesi* (50.3%) sahələrində qeydə alınmışdır:

- 2025-ci ilin dördüncü rübündə *maliyyə və sığorta fəaliyyəti* iqtisadi fəaliyyət sahəsi üzrə ödəniş daxilolmaları ötən ilin eyni rübünə nəzərən 29.3% və ya 1.3 mlrd. manat artaraq 5.8 mlrd. manat təşkil etmişdir. Artıma töhfə əsasən *pul vasitəçiliyi* qrupundan (2.98 mlrd. manat) irəli gəlmişdir. Eyni dövr üzrə *sığorta və pensiya təminatından başqa digər maliyyə vasitəçiliyi* sahəsində də azalma (1.49 mlrd. manat) müşahidə edilmişdir.
- *Emal sənayəsi* üzrə iqtisadi fəaliyyət sahəsində ödəniş daxilolmaları hesabat dövründə 4.1 mlrd. manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 38.1% artım deməkdir. Sözügedən artım əsasən *təmizlənmiş neft məhsullarının istehsalı; avtomobillərin istehsalı; əsas kimyəvi maddələrin istehsalı, habelə kosmik aparatlar da daxil olmaqla uçan aparatların istehsalı* kimi qruplarda müşahidə olunmuşdur. Bu qruplar üzrə ödəniş daxilolmalarında müvafiq olaraq 456.7 mln. manat, 109.1 mln. manat, 68 mln. manat və 67.3 mln. manat artım qeydə alınmışdır ki, bu da emal sənayesi üzrə ümumi artımın əsasını təşkil etmişdir.
- Hesabat dövründə *dövlət idarəetməsi və müdafiə* iqtisadi fəaliyyət sahəsi üzrə ümumi ödəniş daxilolmaları ötən ilin müvafiq dövrünə nəzərən 13.2% və ya 1020.1 mln. manat artmışdır. Bu sektorda bütün qruplarda artım müşahidə edilmişdir. Artıma töhfə verən əsas amil *ümumi xarakterli dövlət idarəetməsi və sosial-iqtisadi idarəetmə* qrupundan irəli gələn dinamika olmuşdur. Belə ki, bu qrupda 15.3% və ya 934.2 mln. manat artım qeydə alınmışdır.
- Mədənçıxarma sənayesi üzrə ödəniş daxilolmaları ötən ilin eyni rübünə nəzərən 50.3% və ya 817.5 mln. manat artmışdır. Artıma töhfə neft və təbii qaz sahəsində xidmətlərin göstərilməsi (679.3 mln. manat) və xam neft hasilatı (200.3 mln. manat) qruplarından irəli

gəlmişdir. Azalma isə əsasən təbii qaz hasilatı (50.7 mln. manat) və daş, qum və gil hasilatı (26.9 mln. manat) qrupları üzrə olmuşdur.

Şəkil 6. İqtisadi fəaliyyət sahələri üzrə maliyyə axınlarında dəyişmə, benefisiarlar üzrə
(2025-cü ilin dördüncü rübü, əvvəlki ilin müvafiq dövrünə nəzərən)



Ticari və qeyri-ticari sektorlarda maliyyə axınları

2025-ci ilin dördüncü rübündə ödəniş daxilolmalarında qeyri-ticari sektorun üstünlüyü davam etmişdir. Ticari sektorda ödəniş daxilolmaları ümumi daxilolmaların 19%-i təşkil etməklə 7.7 mlrd. manat, qeyri-ticari sektorda isə 81%-i təşkil etməklə 32.9 mlrd. manat olmuşdur. Ticari və qeyri-ticari sektorların maliyyə axınlarında payı onların qeyri-neft ÜDM-dəki payına uyğundur. Artım müşahidə olunan fəaliyyət sahələrinin ümumi ticari sektor üzrə daxilolmalarda payı keçən ilə nəzərən 89.5%-ə qədər artmışdır, azalma müşahidə olunan fəaliyyət sahəsinin payı isə azalaraq 10.5%-ə enmişdir. Ötən ilin dördüncü rübündə ümumi iqtisadi aktivlik indeksində artım həm qeyri-ticari, həm də ticari sektorda baş tutan artım dinamikası hesabına baş vermişdir (Şəkil 7). Bütövlükdə qeyri-ticari sektor üzrə iqtisadi aktivlik indeksində ötən ilin dördüncü rübündə üçüncü rübə nəzərən əhəmiyyətli artım, ticari sektor üzrə isə oxşar dinamika müşahidə edilmişdir.

Şəkil 7. Ticari və qeyri-ticari sektorlar üzrə iqtisadi aktivlik indeksi
(Sol qrafik ticari, sağ qrafik isə qeyri-ticari aktivlik indeksini göstərir.)



Ümumi ödəniş daxilolmalarında ticari və qeyri-ticari sektorların payını göstərən rüblük dinamika Şəkil 8-də verilmişdir. Ticari və qeyri-ticari sektorların nisbəti mühüm mikro və makroiqtisadi dəyişənlərlə yanaşı mövsümilikdən də təsirlənir. 2025-cü ilin dördüncü rübündə ticari sektorun ümumi daxilolmalardakı payı ötən ilin eyni rübünə nəzərən 3 faiz bəndi azalmışdır.

Şəkil 8. Maliyyə axınlarında ticari və qeyri-ticari sektorların payı



Neft və qeyri-neft sektorları üzrə maliyyə axınları

2025-ci ilin dördüncü rübündə qeyri-neft sektoru üzrə iqtisadi aktivlik indeksində ötən rüblə müqayisədə artım qeydə alınmışdır. Qeyri-neft sektoru üzrə aktivlik indeksi ötən rübün sonları ilə müqayisədə artım gözlənsə belə, ötən ilin dördüncü rübü ilə miqyasda 0.5% azalmışdır. Neft sektoru üzrə aktivlik indeksi hesabat dövründə ötən ilin eyni dövrü ilə müqayisədə 38.2% artmışdır (Şəkil 9).

Şəkil 9. Neft və qeyri-neft sektorları üzrə iqtisadi aktivlik indeksi
(Sol qrafik neft, sağ qrafik isə qeyri-neft aktivlik indeksini göstərir.)



Maliyyə axınlarının sahəvi istiqaməti

2025-ci ilin dördüncü rübündə iqtisadi fəaliyyət sahələri arasında maliyyə axınlarının istiqaməti ilə bağlı dinamika Şəkil 10-da göstərilmişdir. Ümumilikdə, maliyyə axınlarına əsasən qarşılıqlı əlaqələr *ticarət, nəqliyyat vasitələrinin təmiri* sahəsi ilə ticari sahələr olan *kənd*

təsərrüfatı, mədənçıxarma və *emal sənayəsi* arasında olmuşdur. Həmçinin, *dövlət idarəetmə və müdafiə* sahəsindən *maliyyə və sığorta fəaliyyətinə, mədənçıxarma sənayesindən isə elektrik enerjisi istehsalı və təzhizatı* sahələrinə maliyyə axınları müşahidə edilmişdir.

Şəkil 10. İqtisadi fəaliyyət sahələri arasında maliyyə axınlarının istiqaməti[9]



A - Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, B - Mədənçıxarma sənayesi, C - Emal sənayesi, D - Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, E - Su təchizatı, tullantıların təmizlənməsi və emalı, F - Tikinti, G - Ticarət, nəqliyyat vasitələrinin təmiri, H - Nəqliyyat və anbar təsərrüfatı, I - Turistlərin yerləşdirilməsi və ictimai iaşə, J - İnformasiya və rabitə, K - Maliyyə və sığorta fəaliyyəti, L - Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, M - Peşə, elmi və texniki fəaliyyət, N - İnzibati və yardımçı xidmətlərin göstərilməsi, O - Dövlət idarəetməsi və müdafiə, sosial təminat, P - Təhsil, Q - Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, R - İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, S - Digər sahələrdə xidmətlərin göstərilməsi.

[9] Dairə iqtisadi fəaliyyət sahələri üzrə bərabər seqmentlərə bölünmüş və rənglər əsasında fərqləndirilmişdir. Çevrə xəttindəki şkala hər bir iqtisadi fəaliyyət sahəsindən xaricolmaları faiz nisbətində göstərir. Fərqli rəngə malik xətlər həmin sektora müvafiq sektorlardan daxilolmaları bildirir. Bəzi xətlərin qalınlığının dəyişməsi emitent və benefisiar sahənin fərqli həcm miqyasından irəli gəlir.

Metodoloji qeydlər

Sahələrarası maliyyə axınlarının təhlili dövr ərzində Milli ödəniş sistemi vasitəsilə həyata keçirilmiş ödəniş daxilolmaları (benefisiar) əsasında hazırlanmışdır. AZIPS sistemində ayrı-ayrı subyektlər tərəfindən həyata keçirilmiş əməliyyatlar Dövlət Vergi Xidmətinin AVİS məlumat bazasından əldə olunmuş hər bir VÖEN sahibinin aid olduğu əsas iqtisadi fəaliyyət sahəsi üzrə qruplaşdırılmışdır. Ödəniş daxilolmaları barədə məlumatlar Beynəlxalq Standart Sənaye Təsnifatına (ISIC) əsasən 19 fəaliyyət sahəsi üzrə aqreqatlaşdırılmışdır. Sahələrarası maliyyə axınları statistikası günlük əsasda qurulmuş, təhlil zamanı hər bir iqtisadi fəaliyyət sahəsi üzrə günlük kənarlaşmalar (autlayerlər) müəyyən edilmiş və vinsorlaşdırılmışdır.

Ödəniş daxilolmalarının təhlili zamanı bir sıra mövsümi meyillər aşkara çıxarılmışdır. Buna misal olaraq, cümə axşamı günlərində və dekabr ayında dövri olaraq daha çox ödənişlərin həyata keçirildiyini, bazar ertəsi günlərində və yanvar ayında isə daha az ödənişlərin həyata keçirildiyini qeyd etmək mümkündür (Şəkil 11 və 12).

Şəkil 11. Maliyyə axınlarının həftənin günləri üzrə paylanması (mln. manat)[10]



Dövri təsirlərin aradan qaldırılması məqsədilə zaman sıraları trend, mövsümi və qalıq olaraq aşağıdakı kimi dekompozisiya olunmuşdur.

$$y(t) = g(t) + s(t) + e(t)$$ [11] (1)

Burada $y(t)$ zaman sırası, $g(t)$ trend, $s(t)$ həftəlik və aylıq mövsümi komponentlər, $e(t)$ mövsümu və yaxud trendlə izah oluna bilməyən idiosinkratik dəyişiklikləri bildirir.[12]

[10] Hər bir gün üçün günlük ödənişlərin cəmi göstərilmişdir. Həftəlik mövsümiliyin aydın görünməsi üçün hər bir gün müvafiq rənglə göstərilmişdir.

[11] AZIPS-də həftə sonları və bayram günləri ödənişlər olmadığı üçün onların effektləri nəzərə alınmamışdır.

[12] $s(t) = s(t)_{həftəlik} + s(t)_{aylıq}$) kimi, trend komponenti *g(t)=μt* zamandan xətti asılılıq kimi modelləşdirilmişdir.

Şəkil 12. Maliyyə axınlarının ilin ayları üzrə paylanması[13]



Mövsümi təsirlərin müəyyənləşdirilməsində “Fourier” dekompozisiyasından və “Prophet” statistik proqramlaşdırma paketindən (R, Python) istifadə edilmişdir (Taylor and Letham, 2017).[14] “Fourier” sıralarına əsasən təkrarlanan proseslər aşağıdakı kimi aproksimasiya oluna bilər (Campbell and Diebold, 2005; De Livera, Hyndman and Snyder, 2011):

$$s(t) = \sum_{n=1}^{N} \left(a_n \cos \frac{2\pi nt}{P} + b_n \sin \frac{2\pi nt}{P} \right) \quad (2)$$

Yuxarıda qeyd olunmuş a_n və b_n müəyyənləşdirilməli olan parametrləri, P zaman kəsiyini (gündəlik zaman sırası üçün $P = 365.25$) bildirir. Paramaterlərin müəyyənləşdirilməsi üçün hər bir *t*-kəmiyyətinə görə mövsümi vektorların matrisinin qurulması tələb olunur. Məsələn, illik mövsümilik və *N* = 10 ilə mövsümi vektorların matrisi aşağıdakı kimi təyin olunur:

$$X(t) = \left[\cos\left(\frac{2\pi(1)t}{365.25}\right), \ldots, sin\left(\frac{2\pi(10)t}{365.25}\right) \right] \quad (3)$$

Daha sonra mövsümi komponent aşağıdakı kimi müəyyənləşdirilmişdir:

$$s(t) = X(t)B \quad (4)[15]$$

Zaman sırası mövsümi təmizləndikdən sonra iqtisadi aktivlik indeksi hesablanmışdır. İqtisadi aktivlik indeksinin hesablanmasında hər bir iqtisadi fəaliyyət sahəsinin ÜDM-dəki çəkisindən istifadə olunmuşdur.

Növbəti hesabatlarda metodologiyanın mütəmadi təkmilləşdirilməsi nəzərdə tutulur.

[13] Hər bir ay üçün günlük əməliyyatların sayı göstərilmişdir. Yanvar ayında ödənişlərin azaldığı, dekabr ayında çoxaldığı aylıq mövsümiliyi aydın şəkildə göstərir.

[14] Taylor, Sean J., & Benjamin Letham. "Forecasting at scale." The American Statistician 72.1 (2018): 37-45

[15] B=[a1,b1,...,aN ,bN]

Əlavələr[16]

A. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq



B. Mədənçıxarma sənayesi



C. Emal sənayesi



[16] Qrafiklər 21 günlük sürüşkən orta (mövsümi təmizlənmiş) üsulu ilə hesablanmış məlumatlar əsasında hazırlanmışdır. Rəqəmlər gündəlik milyon manatla ifadə olunmuşdur.

D. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı



E. Su təchizatı, tullantıların təmizlənməsi və emalı



F. Tikinti



G. Ticarət, nəqliyyat vasitələrinin təmiri



H. Nəqliyyat və anbar təsərrüfatı



J. İnformasiya və rabitə



K. Maliyyə və sığorta fəaliyyəti



L. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar



M. Peşə, elmi və texniki fəaliyyət



N. İnzibati və yardımçı xidmətlərin göstərilməsi



O. Dövlət idarəetməsi və müdafiə, sosial təminat



P. Təhsil



Q. Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi



R. İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət



S. Digər sahələrdə xidmətlərin göstərilməsi



İ. Turistlərin yerləşdirilməsi və ictimai iaşə



Cədvəl 1. İqtisadi fəaliyyət sahələri üzrə ödəniş daxilolmaları, mln. manat[17]

İqtisadi fəaliyyət sahəsi	2025-ci il, IV rüb	2024-cü il, IV rüb	Dəyişmə, %
Kənd təsərrüfatı	367.3	331.1	10.9%
Mədənçıxarma sənayesi	2 443.3	1 625.7	50.3%
Emal sənayesi	4 078.6	2 954.3	38.1%
Elektrik enerjisi, qaz, buxar təchizatı	639.7	797.6	-19.8%
Su təchizatı	169.8	188.6	-10.0%
Tikinti	5 318.9	5 709.5	-6.8%
Topdan və pərakəndə ticarət	5 832.3	5 721.5	1.9%
Nəqliyyat və anbar təsərrüfatı	1 400.4	1 264.8	10.7%
Yaşayışın təşkili və ictimai iaşə	253.7	248.6	2.1%
İnformasiya və rabitə	1 128.3	1 272.4	-11.3%
Maliyyə və sığorta fəaliyyəti	5 826.5	4 505.6	29.3%
Daşınmaz əmlak	339.3	288.7	17.5%
Peşə, elmi və texniki fəaliyyət	2 314.9	1 854.8	24.8%
İnzibati və yardımçı xidmətlər	744.3	569.8	30.6%
Dövlət idarəetməsi və müdafiə	8 767.0	7 746.9	13.2%
Təhsil	139.1	310.2	-55.2%
Səhiyyə və sosial xidmətlər	257.6	243.1	5.9%
İstirahət, əyləncə və incəsənət	202.5	188.3	7.6%
Digər sahələrdə xidmətlər	334.0	456.9	-26.9%
Bütün fəaliyyət sahələri	**40 557.4**	**36 278.6**	**11.8%**

[17] Fəaliyyət sahəsi müəyyənləşdirilməyən benefisiarlar üzrə ödənişlər cədvəldə əks olunmamışdır.